## ƏMƏKDAR ELM XADİMİ, PROFESSOR ABUZƏR XƏLƏFOVUN 80 İLLİK YUBİLEYİ QARŞISINDA

**Azərbaycanda milli kitabxanaşünaslıq elminin banisi, ali kitabxanaçılıq təhsilinin təşkilatçılarından və müstəqil Kitabxanaçılıq fakültəsinin yaradıcısı, görkəmli elm, təhsil və mədəniyyət xadimi kimi professor Abuzər Alı oğlu Xələfovun adı respublikamızda və ölkəmizin sərhədlərindən uzaqlarda çox yaxşı tanınır.**

**Bu il Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin prezidenti, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Xələfovun 80 illik yubileyi tamam olur. Görkəmli alimin yubileyinin respublika miqyasında təntənəli şəkildə qeyd olunması ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Təhsil Naziri və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Naziri xüsusi əmrlər imzalamışlar. Hazıtrda həmin əmrlərdə nəzərdə tutulan tədbirlərin icrası üçün iş aparılır.**

**"Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktiki jurnalı da yubiley silsiləsindən professor Abuzər Xələfovun həyat və fəaliyyətinə həsr edilmiş növbəti məqaləni oxuculara təqdim edir.**

* * *

# A.A.XƏLƏFOVUN ELMİ-TƏDQİQATLARI AZƏRBYACAN MİLLİ KİTABXANAŞÜNASLIĞININ NAİLİYYƏTİDİR

**E.Y.ƏHMƏDOV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə XX əsrin ikinci yarısında post sovet məkanında və müstəqillik dövründə Azərbaycan kitabxanaşünaslığının tərəqqisi və milli kitabxanaşünaslığın formalaşmasında onun banisi Əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, professor A.A.Xələfovun fəaliyyəti işıqlandırılmışdır.*

XX əsrin II yarısından etibarən Azərbaycanda kitabxanaşünaslıq elminin və ali kitabxanaçılıq təhsilinin yüksəliş mərhələsinə başlanmışdır. Bu dövrə

qədər kitabxana işinə dair bir sıra məqalələr dərc olunsa da, onlar kitabxanaşünaslığın nəzəriyyəsində ilkin rüşeymlər kimi xarakterizə olunur. XX əsrin ikinci yarısınadək olan dövr ali kitabxanaşünaslıq təhsilinin mövcud olmaması, kitabxanaşünaslığın nəzəriyyəsi ilə ardıcıl məşğul olan kadrların çatışmazlığı ilə müşayiət olunmuşdur. Əsrin 60-cı illərindən başlayaraq Abuzər Alı oğlu Xələfovun ilk dəfə olaraq Azərbaycanda kitabxana işinin inkişafının mühüm mərhələlərini elmi cəhətdən ümumiləşdirməyə başlaması, kitabxanaların tarixinin tədqiqi ilə məşğul olması, kitabxanaşünaslığın vəzifə və problemlərini qanunauyğun şəkildə öyrənməsi elmi ictimaiyyətin diqqətini cəlb etmişdir. Bəhs olunan dövrdə Azərbaycan postsovet məkanında olmuşdur. Müxtəlif elm sahələri üzrə tədqiqatlar inteqrativ formatda aparılmışdır. Azərbaycan kitabxanaşünaslığının tədqiqi, kitabxana tarixinin öyrənilməsinin əsas mərhələsi məhz bu dövrə təsadüf edir.

1960-cı ildən başlayaraq kitabxanaşünaslıq elmi və ali kitabxanaçılıq təhsili paralel inkişaf edərək respublikasının elm və təhsil sahəsində özünəməxsusluq qazanmışdır. Təsadüfi deyil ki, Azərbaycanın görkəmli şəxsiyyətləri öz elmi və publisistik məqalələrində məruzə və çıxışlarında milli kitabxanaşünaslığın, təhsilin və mədəniyyətin inkişafında kadr hazırlığında mühüm tövhələr vermiş Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovun xidmətlərini yüksək qiymətləndirirlər. A.Xələfov həmin dövrdə tədqiqatçı alim kimi öz fəaliyyətini artırır, elm və tədris prosesinə rəhbərlik vərdişlərinə yiyələnir, bir sözlə, hərtərəfli təkmilləşirdi. Onun ömrünün 60 ili Bakı Dövlət Universiteti ilə, Azərbaycanda kitabxana işi və ali kitabxanaçılıq təhsili ilə bağlıdır. A.Xələfov respublikada elmi kitabxanaşünaslığın banisi, ali kitabxanaçılıq təhsilinin yaradıcısıdır. O, BDU-da müstəqil kitabxanaçılıq fakültəsinin ilk dekanı olmuş, 25 il fakültəyə rəhbərlik etmişdir. Eyni zamanda bu sahədə ilk namizədlik və doktorluq dissertasiyalarını müdafiə etmiş, Azərbaycanda kitabxanaşünaslıq elmi məktəbinin yaradıcısı, ölkənin kitabxanaçılar nəslinin müəllimi, son on illər ərzində kitabxanaşünaslıq fənnləri üzrə bütün dərs vəsaitləri və tədris metodik materialların müəllifi, redaktoru və nəşrlərin təşkilatçısı olmuşdur. Alim həmçinin Azərbaycanda mədəniyyət tarixi kitabxana işinin nəzəri-metodik problemləri, kitabxanaçılıq təhsilli sahələrində 200-dən artıq monoqrafiya və elmi məqalənin müəllifidir.

Prof. A.Xələfovun fəaliyyətinin böyük bir hissəsi postsovet məkanına aid olsa da onun elmi tədqiqat fəaliyyətində özünəməxsusluq, vətənpərvərlik, Azərbaycan milli idealogiyası üstünlük təşkil etmişdir. O, haqlı olaraq qeyd etdiyi kimi post sovet məkanında respublikamızda milli kitabxanaşünaslığın inkişafı, kitabxanaşünaslığa dair elmi tədqiqatların aparılması sahəsində elə bir ciddi iş görülməmiş, xüsusilə kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji problemlərinin araşdırılması diqqətdən kənarda qalmış, kitabxanaşünas-

lıq problemlərinə dair elmi tədqiqat müəssisələri və qeyri-elmi mərkəzlər yaradılmamışdır.

Əlamətdar hal kimi qiymətləndirmək lazımdır ki, A.Xələfovun tədqiqatları əgər XX əsrin 50-60-cı illərində, ümumiyyətlə Azərbaycanda kitabxana işinin tarixinin və nəzəriyyəsinin əsas problemləri yönündə elmi nəticələr və elmi mülahizələr formalaşdırır, kitabxanalarımızın əhəmiyyətini, vəzifələrini, iş metodlarını və başlıca məqsədini ətraflı şəkildə açıb göstərirdisə, 70-80-cı illərin araşdırmaları artıq kitabxana işinin tarixi, nəzəriyyəsi və metodikası sahəsindəki elmi tədqiqat işlərinin yeni dövrün vəzifələrinə uyğun olaraq həyata keçirilməsinə, cəmiyyətdə kitabxanaların rolunun və sosial funksiyasının yüksəldilməsi məsələlərini istiqamətləndirmişdir.

Bütün bunların əyani təsdiqi kimi qeyd etmək lazımdır ki, A.Xələfovun 60-cı illərin əvvəllərində nəşr etdirdiyi "Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920)" və "Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932)" mövzularında monoqrafiyaları elmi ictimaiyyətin böyük rəğbətini qazanmışdır. Sonuncu monoqrafiya müəllifin namizədlik dissertasiyasının əsasını təşkil edir. Azərbaycan mədəniyyətinin əsas sahələrindən birini təşkil edən kitabxana tarixinin tədqiqi və samballı faktların elmi dövriyəyə daxil edilməsi A.Xələfovun Azərbaycan mədəniyyət tarixinə verdiyi çox böyük töhfə olmuşdur.

Bu tədqiqatın davamı olaraq 1975-ci ildə A.Xələfovun müdafiə etdiyi "Azərbaycanda kitabxana işinin tarixi (1933-1958-ci illər)" mövzusunda doktorluq dissertasiyası Azərbaycanda həm də postsovet məkanında kitabxana işinin tarixi sahəsində müdafiə olunmuş ilk doktorluq dissertasiyası idi.

1970-ci illərdə kitabxanaşünaslıq və biblioqrafiya kafedralarına yeni gənc mütəxəsislərin cəlb olunması Kitabxanaçılıq fakültəsinin işini xeyli qüvvətləndirmişdir ki, bu da kitabxanaşünaslıq elminin inkişafına müsbət təsir göstərmiş, həmçinin tədris prosesinin təkmilləşdirilməsinə, onun keyfiyyətinin yüksəldilməsinə səbəb olmuşdur. Bu illərdə universitetinin elmi əsərlərinin "Kitabxanaşünaslıq və biblioqrafiya" seriyası nəşr olunmağa başladı. Bu seriyanın nəşrə başlaması respublika kitabxana ictimaiyyəti tərəfindən böyük rəqabətlə qarşılandı. Seriyanın redaktoru prof. Abuzər Xələfov olmuşdur. Məhz A.Xələfovun təşəbbüsü nəticəsində o dövrdə Azərbaycan kitabxanaşünaslığının nəzəri məsələləri jurnalda müntəzəm olaraq nəşr olunmuşdur. O dövrdə kitabxanaşünaslıq problemləri sovet ideologiyası təsiri altında tədqiq edilsə də, A.Xələfovun milli ideoloji hisslərinin təsiri jurnalın məzmununda hiss olunurdu. Fakültədə müntəzəm təşkil olunmuş elmi seminarlarda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın aktual problemləri təhlil olunur, əhaliyə kitabxana xidmətinin forma və üsulları dövrün tələbatına uyğun olaraq xarakterizə edilirdi. Prof. A.Xələfovun təşəbbüsü və rəhbərliyi ilə kitabxanaşünaslıq və biblioqrafiyanın aktual problemlərinə, kitabxana tarixinə, əhaliyə

kitabxana xidmətinin təşkili məsələlərinə, kitab fondunun, kataloqların təşkilinə, kitabxana təsnifatı məsələlərinə, Azərbaycan biblioqrafiyasının inkişafına, kitab təbliğinin müxtəlif forma və üsullarına, kitabxana şəbəkəsinə, onun yerləşdirilməsinə və s.-yə dair məsələlər müzakirə edilirdi.

Beləliklə, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elminin təşkilinə təsir edən elmi seminarların mövzuları daim genişlənmiş, təkmilləşmiş, müzakirələr daha ciddi elmi xarakter almağa başlamışdır. Fakültə əməkdaşlarının kitabxanaşünaslıq elmi dünyagörüşlərinin formalaşmasına təsir edən amil kimi elmi seminarlar bir nümunəyə çevrilmişdir. Bu elmi təcrübi irsin davam etdirilməsi və daha da təkmilləşdirilməsi Kitabxanaçılıq fakültəsində elmi tədqiqat işi səviyyəsinin və kitabxanaşünaslıq fikrinin daha da yüksəlməsinə kömək edən əsas amillərdən biri olmuşdur. Mövcud şəraitdə prof. A.Xələfovun rəhbərliyi ilə Azərbaycanda ali kitabxanaçılıq təhsilinin yeni konsepsiyası əsasında kitabxanaşünaslıq fənnləri silsiləsi proqramlarının yeniləşdirilməsi üzrə xeyli iş görülmüşdür.

Kitabxanaların cəmiyyətdəki fəaliyyətinin əsas təzahür forması olan kitabxana işinə sosial vasitə kimi böyük əhəmiyyət verən prof. A.Xələfov öz elmi fəaliyyətində cəmiyyətin kitabxanaların qarşısına qoyduğu sosial vəzifələrin bilavasitə sistem halında formalaşan, geniş və mürəkkəb struktura malik olan kitabxana işi tərəfindən həyata keçirilməsini nəzərə alaraq, bu mühüm prosesin elmi təşkilinin nə qədər böyük mahiyyət kəsb etdiyini aşkara çıxarmışdır. Kitabxanaşünaslığın terminoloji cəhətdən tədqiq edilməsi və dəqiqləşdirilməsi ümumi xarakteristikası, sistem halında öyrənilməsi və tərkibinin müəyyənləşdirilməsi mühüm elmi və təcrübi mahiyyət kəsb etmişdir. Son dərəcə mürəkkəbləşmiş olan kitabxana prosesinin gündəlik idarə edilməsi kitabxanaşünaslığın geniş məsələlər dairəsi üzrə elmi-tədqiqat işi üçün dərin elmi baza olmasını, həmçinin elmi-tədqiqat işlərinin qoyuluşunun və təşkilinin səviyyəsinin yüksəldilməsi tələb olunurdu. Kitabxanaşünaslıq sahəsində tədqiqatların səviyyəsinin yüksəldilməsi xeyli dərəcədə kitabxanaşünaslığın elmi potensialının yüksəldilməsindən ibarət idi.

Bu baxımdan prof. A.Xələfov kitabxanaşünaslıq nəzəriyyəsinin inkişafının mövcud şəraitdə kitab dövriyyəsinin fundamental kompleks problemlərinin digər elmlərlə inteqrasiya şəklində qurulan kitabxana işinin vəziyyətinin və inkişaf yollarının təhlili üçün dərin nəzəri zəmin yaradırdı.

Prof. A.Xələfovun elmi fəaliyyətinin 70-80-ci illər üçün xarakterik olan kitabxanaşünaslıq nəzəriyyəsində cəmiyyətdə kitabxanaların sosial rolu, iqtisadi və mədəni rolu, mütaliənin bəşəri xarakteri, kitabxana proseslərinin səmərəliliyinin artırılması yolları, əhaliyə kitabxana xidmətinin vahid sisteminin təkmilləşdirilməsi, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması kimi müddəalar prioritet təşkil edirdi. Kitabxanaşünaslığın nəzəri məsələlərində kitab təbliği və mütaliəyə rəhbərliyin pedaqoji-psixoloji əsaslarının

təsirli metodlarının sistemli formalaşması kitabxanaşünaslıq elminə böyük töhfələr verirdi.

Prof. A.Xələfov kitabxanaşünaslıq elminin tədqiqinə kompleks formada yanaşaraq nəzəriyyə və təcrübənin vəhdəti əsasında problemin qoyuluşunu qiymətləndirdi. Belə ki, cəmiyyətdə kitabxanaşünaslığın nəzəri problemlərinin öyrənilməsinə tələb artmışdır. "İnsan və informasiya", "Kitabxana və kommunikasiya", "İnsan və kitab", "Kitabxana və cəmiyyət", "Kitabxana və mədəniyyət" problemlərinin kompleks şəkildə öyrənilməsi zəruriliyi kitabxanaşünaslıq nəzəriyyəsinin yayılıb formalaşmasını tələb edirdi. A.Xələfov kitabxanaşünaslığın tədqiqində, metod və metodologiyanın əhəmiyyətini vurğulayaraq bildirir ki, kitabxanaşünaslıq tədqiqatlarında fəlsəfi kateqoriyalar, qanunauyğunluqlar əsaslı rol oynayır.

Alim son tədqiqatlarını müasir şəraitdə öyrənilməsinə çox böyük zərurət duyulan kitabxanaşünaslığın fəlsəfəsinə həsr etmişdir. Dünya kitabxanaşünaslığında mövcud olan tədqiqatların elmi təhlil edilməsi əsasında bəzi yeni fikirlər və mülahizələr söyləməyə, ümumiləşdirmələr qurmağa müvəffəq olmuşdur. Alim fəlsəfənin və kitabxanaşünaslıq fəlsəfəsinin obyekt və predmetinə, vəzifələrini, onların qarşılıqlı əlaqələrinə, elm və fəlsəfənin ayrı-ayrı elmlərin fəlsəfəsinə təsirinə, metodoloji rol oynamasına elmi-nəzəri əhəmiyyət kəsb etməsinə aydınlıq gətirmişdir.

Artıq kitabxanaşünaslıq elminin tədris prosesinə çevrilməsi ardıcıl olaraq kitabxanaşünaslıq fənnləri sistemində sistemli qaydada özünü biruzə verirdi. Kitabxanaşünaslığa giriş fənni kitabxanaşünaslıq fənnləri sistemində əsas yer tutan ümumnəzəri və peşəkar təcrübi xarakterli elmi fənn kimi tədris olunurdu. Bu fənn kitabxana işinin inkişaf qanunauyğunluqları əhaliyə kitabxana xidmətinin təşkili, kitabxana işinin idarə edilməsi, kitabxana sisteminin formalaşması, kitabxanaların tipologiyası, kitabxana şəbəkələrinin yerləşdirilməsi və mərkəzləşdirilməsi kimi mühüm nəzəri əhəmiyyətə malik problemləri öyrənir. "Kitabxana fondu", "Kitabxana kataloqları", "Oxucularla iş", "Kitabxana işinin təşkili, iqtisadiyyatı və idarə olunması", "Kitabxana işinin tarixi", "Kitabxana informasiya xidmətinin texniki vasitələri" kimi fənnlərin tədris metodiki bazası formalaşır, kitabxanaşünaslıq elminin tədris prosesinə çevrilməsini prosesi baş verirdi.

Prof. A.Xələfov 70-80-ci illərdə Moskva Mədəniyyət və İncəsənət Universitetinin, Vilnus universitetinin Kitabxanaçılıq fakültələri ilə müntəzəm əlaqə yaradaraq fənnlərin səmərəli öyrənilməsi və tədrisi məqsədilə qabaqcıl təcrübə kimi onların tədris planlarından istifadə edirdi. Ali kitabxanaçılıq təhsilinin formalaşmasında A.Xələfovun şəxsi təşəbbüsləri əhəmiyyətli rol oynamışdır. Kitabxanaçılıq fakültəsində idarə etmə sistemin fakültənin elmi tədqiqat sahəsindəki fəaliyyəti ilə əlaqələndirilir, fakültədə müntəzəm olaraq elmi konfranslar, elmi semminarlar, TEC dərnəkləri, görkəmli ziyalılarla

görüşlər ənənə halını almışdır ki, bu da tələbələrin tədris biliyi ilə bərabər onların elmi dünyagörüşünün, formalaşmasına əhəmiyyətli təsir edirdi.

Kitabxanaşünaslıq üzrə elmi tədqiqat işləri əsasən üç istiqamətdə – dissertasiya işi mövzuları işləyib müdafiə etmək; dərsliklər, dərs vəsaitləri, metodik göstəricilər hazırlayıb nəşr etdirmək; elmi məqalələr yazıb dərc etdirmək istiqamətində aparılırdı. Prof. A.Xələfovun rəhbərliyi ilə kitabxanaşünaslığın bütün mühüm sahələrinə dair elmi tədqiqatlar aparılırdı. Bunlara misal olaraq dos. S.Rzayevin, dos. Ə.Rüstəmovun, prof. X.İsmayılovun, dos. A.Abbasovun, dos. T.Quliyevin, dos. K.Aslanın, dos. M.Məmmədovun, dos. A.Əliyevin, dos. E.Əhmədovun və b. uğurla tədqiq etdikləri dissertasiya işlərinin müdafiəsini onun böyük xidmətləri kimi qeyd etmək yerinə düşər. Kitabxanaşünaslığın müxtəlif sahələrinə həsr olunmuş alimlərin elmi tədqiqat işlərinin müdafiəsi kitabxanaşünaslıq elminin formalaşmasına böyük təkan vermişdir.

Müstəqillik illərində prof. A.Xələfovun rəhbərliyi ilə kitabxanaşünas alimlərin apardığı tədqiqatlarda xalqımızın kitabxanaçılıq işi sahəsində zəngin tarixi ənənələrinin 70 illik sovet ideologiyasından təmizlənməsi, kitabxana xidmətinin milli və ümumbəşəri dəyərlərə əsaslanması, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi kitabxana işinin bazar iqtisadiyatına uyğunlaşdırılması, kitabxana işinin hüquqi bazasının yaradılması və demokratikləşdirliməsi, kitabxanaların kompüterləşdirilməsi prosesinin həyata keçirilməsi və s. kimi aktual məsələlər ön plana çəkilmiş və yeni dövrün tələblərinə uyğun olaraq elmi istiqamətlər yaradılmışdır.

Təqdirəlayiq haldır ki, müstəqillik dövründə kitabxanaşünaslıq üzrə elmi kadrların hazırlanması konsepsiyasını məhz prof. A.Xələfov hazırlanmış və hayata keçirməyə başlamışdır. Məhz onun kitabxana işinin demokratikləşdirilməsi ilə bağlı yazıb elmi ictimaiyyətə təqdim etdiyi fundamental əsərlər, kitabxana işinin hüquqi bazasının yaradılması sahəsində gördüyü işlər yeni elmi araşdırmalara zəmin yaratdı. Kitabxanaşünaslıq elmi gənc nəslin yetişməsi üçün işıqlı yol açdı. Bu fikrin əyani təsdiqi üçün təkrarən demək yerinə düşər ki, 2000-2004-cü illərdə prof. A.Xələfovun rəhbərliyi ilə 1 doktorluq 5 namizədlik dissertasiyası müdafiə edilmiş, kitabxanaşünaslıq elminin inkişafında yeni mərhələ başlanmışdır. Təbii ki, həmin elmi tədqiqatların aparılmasında və uğurla nəticələnməsində bir elmi rəhbər kimi prof. A.Xələfovun böyük xidməti var.

Kitabxanaşünaslıq tədqiqatlarında kitabxanaların tipologiyası kimi mürəkkəb problemin çətinliyi prof. A.Xələfovun daim diqqət mərkəzində olmuşdur. O, bu barədə qeyd edir ki, kitabxanaların tipologiyası kimi mürəkkəb problemi tezliklə həll etməyin çətinliyini nəzərə alaraq, yeni tipologiya yaranan kimi hələlik rus kitabxanaşünasları tərəfindən hazırlanmış keçmiş tipologiyadan əsaslı şəkildə fərqlənən və kitabxanaların müasir vəziyyətini qismən də olsa əks etdirən yeni tipologiyadan istifadə etmək məncə daha

məqsədəuyğundur. Məhz buna görə də prof. A.Xələfov özünün zəngin təcrübəsinə əsaslanaraq milli dövlətçiliyimizə və milli idealogiyamıza xidməti baxımından respublikamızın dövlət müstəqilliyi şəraitində mühüm vəzifələr yerinə yetirən kitabxanaların yeni tipologiyasını yaratmışdır.

Prof. A.Xələfovun kitabxanaşünaslıq elmi sahəsindəki özəl fikirləri və ideyaları bu elmin milli kontekstdə inkişafına səbəb olmuşdur. Azərbaycan milli kitabxanaşünaslığında alimin ideya və baxışlarındakı xarakterik xüsusiyyətlər dünya kitabxanaşünaslığının nəzəri məsələlərində də geniş təzahür edir. Müstəqillik illərində A.Xələfovun tədqiqatlarında kitabxana işi anlayışının ətraflı təhlili və kitabxanaların sosial institut kimi xarakterizə edilməsi prioritet təşkil edir. Belə ki, kitabxana ilə kitabxana işi arasındakı qarşılıqlı əlaqələrin öyrənilib dəqiqləşdirilməsi müasir kitabxanaşünaslığa elmi töhfə kimi təlqin edilir.

Məlumdur ki, kitabxana işi olmadan kitabxanalar cəmiyyətin qarşıya qoyduğu vəzifələri: kitabı təbliğ etmək, cəmiyyətin informasiya tələbatını ödəmək, insanların mədəni, intellektual səviyyəsinin yüksəldilməsində, tərbiyə prosesinin təşkilində yaxından iştirak etmək vəzifələrini həyata keçirə bilməz. Beləliklə, cəmiyyətin tərəqqisində prioritet təşkil edən bu vəzifələrin həyata keçirilməsi sosial institut kimi kitabxanaların yerinə yetirdiyi funksiyaların təşkilati formaları kimi nəzərdə tutulur.

Prof. A.Xələfov qeyd edir ki, sosial institutların yaratmış olduğu orqan bilavasitə onun xeyrinə fəaliyyət göstərməklə qarşıda duran vəzifələri yerinə yetirir. Məhz orqanın vasitəsilə institutun hərəkəti başlayır. Misallara müraciət edək: əgər hüquq institutdursa, məhkəmə onun orqanıdır; təhsil və bilik institutdursa, məhkəmə onun orqanıdır. Məsələyə bu prizmadan baxan prof. A.Xələfov belə bir nəticəyə gəlir ki, əgər kitabxana institutdursa, kitabxana işi onun orqanıdır. Beləliklə, müasir kitabxanaşünaslıqda kitabxanaların struktur elementlərini dövriyyəyə gətirən kitabxana işi anlayışı elmi müddəalarla öz yerini tutur.

Prof. A.Xələfovun ən böyük xidmətlərindən biri də onun müstəqillik illərində dərsliklərinin latın qrafikası ilə çap etdirilməsidir. Belə ki, "Kitabxanaşünaslığa giirş" dərsliyi (2 cild, 3 hissə), "Azərbaycanda kitabxana işinin tarixi" (3 cild) adlı dərslikləri alimin çoxillik elmi axtarışlarının və səmərəli pedaqoji fəaliyyətinin uğurlu bəhrəsidir.

Müasir dövrdə dünyada baş verən iqtisadi və sosial dəyişikliklər kitabxanaların fəaliyyətinə güclü təsir etməkdədir və onların qarşısına yeni vəzifələr qoymuşdur. Bu vəzifələr isə kitabxanaşünas alimlər və informasiya texnologiyaları üzrə mütəxəsislər qarşısında müasir kitabxananın yeni fəaliyyət modelinin hazırlanması probleminin araşdırılması məsələsini qoyur. Müasir virtual kitabxana modeli milli kitabxanaşünaslığın nəzəri məsələlərində özünə yer tapmışdır.

Prof. A.Xələfov bu barədə elmi müddəalar irəli sürərkən qeyd edir ki, müasir modern kitabxanaların yaradılması üçün kitabxanaların kompüterləşdirilməsi, kitabxana informasiya texnologiyalarının yaradılması və onların kitabxanalarda tətbiqi məsələsi müasir kitabxanaların qarşısında duran vacib məsələlərdən biridir. Bu problemin nəzəri cəhətdən işlənib təcrübəyə tətbiq edilməsi məqsədilə müstəqillik illərində Bakı Dövlət Universiteti Elmi Kitabxanasının nəzdində rektor akademik A.M.Məhərrəmovun sərəncamı əsasında "Kitabxanaların kompüterləşdirilməsi" ETL yaradılmışdır. ETL-nın rəhbəri prof. A.Xələfov bu sahədə fəaliyyətini uğurla davam etdirərək Elmi Kitabxananın sənəd-informasiya fondunun kompüterləşdirilməsinə rəhbərlik edir, eyni zamanda bu təcrübənin respublikanın digər kitabxanalarında yayılmasına çalışır. Qeyd edək ki, 2007-ci ildə A.Xələfovun "Kitabxanaların kompüterləşməsinin əsasları" adlı dərsliyinin nəşri yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanmasına böyük stimul vermişdir.

Kitabxanaşünaslığın inteqrasiyası, yeni istiqamətlərin meydana çıxması informasiya cəmiyyətinin yaranması mərhələsində müəyyən təzahürlər yarada bilmişdir. Prof. A.Xələfov bu barədə öz fikirlərini belə şərh edir: "Kitabxanaşünaslıqla informatikanın inteqrasiyası nəticəsində məlum olmuşdur ki, bu iki elmin əlaqəsi olmadan müasir zamanda informasiyalaşdırılmış cəmiyyəti inkişaf etdirmək, bu cəmiyyətin qarşıya qoyduğu vəzifələrə cavab vermək, cəmiyyət üzvlərinin informasiya tələbatını ödəmək mümkün deyil".

Beləliklə, alim informasiya cəmiyyətini xarakterizə edərkən qeyd edir ki, informasiya cəmiyyəti işçi qüvvəsinin əksər hissəsinin informasiyanın, xüsusilə onun yüksək keyfiyyət səviyyəsi olan biliyin istehsalı, mühafizəsi və reallaşması ilə bağlı olan cəmiyyətdir. Deməli, biliyin mühafizəsi, tətbiqi, reallaşması kitabxanaşünaslığın nəzəriyyəsinin əsas atributlarından biri kimi cəmiyyətin informasiyalaşdırılmasına əsaslı təsir edir. Kitabxana-informasiya prosesləri məhz kitabxanada baş verdiyindən sahəvi informatika və digər sahəvi texnoloji elmlər kitabxanaşünaslığın təcrübi müddəalarından istifadə etməklə formalaşır.

Prof. A.Xələfov milli dövlətçiliyimizin tərəqqisində xidmətləri olan, xalqımızın tarixini, mədəniyyətini, incəsənətini dərindən bilən, şöhrətli alimdir. Buna görə, ümummilli lider H.Əliyevin prezidentliyi dövründə alimə Şöhrət ordeni, həmçinin kitabxanaşünaslıq elmi sahəsindəki nailiyyətlərinə görə Əməkdar elm xadimi fəxri adlarını vermişdir. Bu fəxri adlar prof. A.Xələfova məhz milli ideoloji və dövlətçilik sahəsindəki, həmçinin Azərbaycan milli kitabxanaşünaslığı sahəsindəki fəaliyyətinə görə verilmişdir.

Prof. A.Xələfovun fəaliyyəti beynəlxalq arenada da yüksək rəğbətlə qarşılanmışdır. Kitabxanaşünaslıq sahəsində dünyada tanınmış alim Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki adına layiq görülmüşdür.

2003-cü ildə Bakı Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə ölkəmizdə ilk dəfə olaraq "Dünyanın görkəmli dövlət xadimləri" seriyasından Azərbaycan Respublikasının dünya şöhrətli prezidenti Heydər Əliyevə həsr olunmuş biblioqrafik məlumat kitabı yüksək poliqrafik səviyyədə işıq üzü görmüşdür. Biblioqrafik göstərici BDU-nun rektoru, akademik Abel Məhərrəmovun rəhbərliyi və ümumi redaktəsi ilə nəşr edilmişdir. Kitabın tərtibçi müəllifləri Əməkdar elm xadimi, prof. A.Xələfov və biblioqrafiyaşünaslıq kafedrasının müəllimi S.Sadıqovadır.

Ümummilli lider H.Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə kitabxana işinə yüksək rəğbət göstərməsini mədəni quruculuğun təntənəsi kimi qiymətləndirən prof. A.Xələfovun "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı fundamental monoqrafiyası isə 2006-cı ildə Azərnəşrdə nəfis şəkildə çapdan çıxmışdır.

Məhz müstəqillik illərində H.Əliyev M.F.Axundov adına Milli kitabxanaya baş çəkmiş, kitabxana işi ilə bağlı müdrik kəlamlarla dolu öz tarixi nitqini söyləmiş, kitabxananı xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, bilik, zəka mənbəyi adlandırmışdır. Fərəhləndirici haldır ki, son illərdə H.Əliyev tərəfindən kitabxana işi haqqında bir çox dövlət sərəncamları və qərarlar verilmiş, "Kitabxana işi haqqında" Qanun imzalanmışdır.

Hazırda ümummilli lider Heydər Əliyev kursunun davamçısı olan prezidentimiz İlham Əliyevin Azərbaycanda kitabxana işinə göstərdiyi böyük qayğı "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda öz əksini tapmışdır. Bu proqramı əldə rəhbər tutan prof. A.Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin banisi kimi müstəqil dövlətimizin dünəni, bu günü və sabahı naminə XXI əsrin ikinci onilliyinin başlanğıcında, 80 illik yubileyi ərəfəsində öz fəaliyyətini uğurla davam etdirir.

## ƏDƏBİYYAT

1. *Xələfov A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin inkişaf istiqamətləri. Bakı, 2006, 106 s.*

2. *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. 3 hissədə. H.3. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2010, 432 s.*

3. *Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik: 3 hissədən ibarət: I-II hissə. Bakı: Bakı Universiteti Nəşriyyatı,2001, 400 s.*

4. *Xələfov A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası ugurla davam edir. Bakı,2009, 185 s.*

5. *Xələfov A. Müstəqillik illərində Azərbaycanda kitabxanaşünaslığın inkişafı. Milli Elmlər Akademiyası Elmi Kitabxanasının əsərləri, 2009, X buraxılış, S.3-34s.*

*6. Knyaz Aslan. Elm və təhsil fədaisi: Monoqrafiya. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006, 240 s.*

## SEINETEFIC STUDERS OF A.A.KHALAFOV IS ARHVMENT OF NATIONAL LIBRARY SCIENEE OF AZERBAIJAN

**E.Y.AHMADOV**

***SUMMARY***

*There was given analise of progressive frends on library science on post-sovet area in seeand part of XX century and on yars of independency in Azerbaijan, Honored Culture Worker, the academic of International Informed Academy attached to UN, prof.A.A.Khalafov.*

## НАУЧНЫЕ ИССЛЕДОВАНИЯ А.А.ХАЛАФОВА ДОСТИЖЕНИЕ НАЦИОНАЛЬНОГО БИБЛИОТЕКОВЕДЕНИЯ АЗЕРБАЙДЖАНА

**Э.Ю.АХМЕДОВ**

***РЕЗЮМЕ***

*В статье дан анализ прогрессивных тенденций в библиотековедческих исследованиях в постсоветском пространстве во второй половине XX века и в годы независимости в Азербайджане. Особенно важно отметить неоценимый вклад в этот прогресс заслуженного деятеля культуры, академика Международной Академии Информатизации, профессора А.А.Халафова.*